# Laçında səslər sayıldı

**Dünən işğaldan azad edilmiş şəhər və rayonlarımızda keçirilən səsvermə Laçında da seçici fəallığı ilə müşayiət olundu. 32 ildən sonra doğma yurdlarına qayıdan laçınlılar seçkilərdə yüksək fəallıq nümayiş etdirdilər.**

**121 saylı Laçın Seçki Dairəsi üzrə 110 məntəqə fəaliyyət göstərir. Bu məntəqələrin altısı Laçın şəhərində yerləşir. Şəhərin mərkəzində yerləşən 106 saylı seçki məntəqəsində səsvermə və səslərin sayılması prosesini müşahidə zamanı bir daha azad, ədalətli, şəffaf seçkilərin şahidi olduq.**

**Seçki məntəqəsinin sədri Qardaşxan Dostyevlə söhbətimiz zamanı bəlli oldu ki, 1320 seçici qeydiyyatda olmuşdur. Gün ərzində seçicilər yüksək əhvali-ruhiyyə ilə məntəqəyə gələrək sərbəst şəkildə seçimlərini edirdilər. Digər seçki məntəqələri kimi, 106 saylı məntəqədə də seçki prosesində şəffaflıq təmin edilmişdi.**









Məntəqə sədrinin sözlərinə görə, laçınlılar uğurlu gələcəklərini qurmaq üçün seçkilərə böyük maraq göstərdilər. Bundan öncə şəhərdə keçirilən prezident seçkilərində də illər sonra Laçına qayıdan əhali böyük fəallıq nümayiş etdirmişdir. Laçında ikinci dəfə səsvermə hüququndan yararlanan seçici Taleh Rüstəmov dedi ki, prezident seçkilərində də iştirak edib və layiqli namizədə səs verib. Bu dəfə isə yenidən qurulan müasir Laçını Milli Məclisdə layiqincə təmsil edə biləcək şəxsə etimad göstərib. Taleh inanır ki, onların seçdikləri namizəd Laçının daha da inkişafı üçün çalışacaq.







Gənc seçici Hüseyn Muradov isə hesab edir ki, Laçının möhtəşəm günləri hələ qarşıdadır. Prezident İlham Əliyevin yenidən qurduğu Laçın inkişaf etdikcə insanların məşğulluğu daha da artacaq. Hazırda şəhərdə bir neçə müəssisə fəaliyyət göstərir və tezliklə burada yeni iş yerləri açılacaq. Laçının yeni seçilən deputatı da əhalinin məşğulluq məsələsinin həlli istiqamətində çalışmalıdır. Onlar inanırlar ki, Milli Məclisdə Laçını təmsil edəcək deputat ümidləri doğruldacaq.

Artıq saat 19-00-da seçki məntəqəsinin qapıları bağlandı. Müşahidəçilərin iştirakı ilə məntəqənin katibi Rəşad Mirzəyev əsas və daşınan səyyar seçki qutularının blomplarını kəsdi. Şəhərdə əlil və ya xəstə seçici olmadığı üçün səyyar qutuya ehtiyac duyulmamışdı. Əsas seçki qutusu mərkəzə gətirilərək açıldı və bülletenlər masanın üzərinə töküldü. Məntəqə üzvləri səslərin sayılma prosesini həyata keçirdilər. Səslərin sayılma prosesindən sonra yekun protokol hazırlandı və məntəqə üzvlərinin hər biri tərəfindən imzalanaraq 121 saylı dairə seçki komissiyasına göndərildi.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

*Bakı-Laçın-Bakı*



Azərbaycan.- 2024.- 2 sentyabr (№ 189).- S.7.